# Neft strategiyasının uğurlu nəticələri

***Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir.***

**Heydər Əliyev.**

Elmi, mədəni, iqtisadi potensiala, əlverişli coğrafi-siyasi mövqeyə malik Azərbaycan, həm də özünün zəngin təbii sərvətləri ilə məşhurdur. Bu sərvətlər içərsində neft əsas yer tutur. Neft Azərbaycan Respublikasının və Azərbaycan xalqının ən böyük sərvətidir. Azərbaycanın neft sənayesi böyük inkişaf yolu keçmişdir. Azərbaycanda neftin sənaye üsulu ilə hasilatına hələ XIX əsrin ortalarından başlanmışdır. 1848-ci ildə Bakıda Bibiheybət yatağında qazılmış quyudan neftın fantan vurması, Azərbaycanda "qara qızılın" sənaye üsulu ilə çıxarılmasının əsasını qoymuşdur. 1899-cu ildə Azərbaycan neft hasilatı və emalı üzrə dünyada birinci yerə çıxmış, dünya neft hasilatının yarısını vermişdir.

XIX əsrin 70-ci illərindən etibarən Azərbaycan neft sənayesinə xarici kapitalın güclü axını başlamışdır. Bu da öz növbəsində yerli neft sahibkarlarının böyük bir nəslinin yetişməsinə təkan vermişdir. Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev və başqaları öz bacarığı, istedadı və əməksevərliyi sayəsində iri neft kapitalistlərinə çevrilmiş, xalqın rifahı üçün işlər görmüşlər.

İkinci Dünya müharibəsi illərində Sovet İttifaqında çıxarılan neftin 75 faizini verən Azərbaycan, cəbhəni yanacaqla təmin edərək alman faşizmi üzərində qələbədə böyük rol oynamışdır.

1949-cu ildə açıq dənizdə Neft daşlarında neftin fantan vurması dənizdə neft çıxarılmasının yeni mərhələsinin başlanğıcını qoymuşdur. Azərbaycan dünyada ilk dəfə olaraq açıq dənizdə neft çıxarmağa başlamışdır. XX əsrin 70—80-cı illəri Azərbaycan neft sənayesinin inkişafı, maddi-texniki bazasının möhkəmlənməsi illəri olmuşdur. Həmin illərdə respublikamızın neft sənayesinin bütün uğurları Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin adı ilə sıx bağlıdır. 70-ci illərin əvvəllərindən etibarən Xəzərdə geoloji-kəşfiyyat işlərinin təşkili və həyata keçirilməsi Heydər Əliyevin misilsiz tarixi xidmətlərindəndir.

1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra bir çox çətinliklərlə üzləşmişdir.

SSRİ-nin keçmiş respublikaları ilə Azərbaycan Respublikası arasında iqtisadi əlaqələr qırılmış, eyni zamanda Ermənistanın Azərbaycana qarşı təcavüzü, ölkəni bürümüş daxili ziddiyətlər, özbaşnalıq, maliyyə-təchizatın sıfıra enməsi neft və qaz sənayesini ağır böhran vəziyyətinə salmışdır. Belə bir şərait Qərbin böyük neft şirkətlərini Azərbaycandan çəkindirirdi. Eyni zamanda aparılan danışıqlarda Azərbaycanın iqtisadi maraqları tam təmin olunmurdu. Belə bir ağır vəziyyətdə yalniz xalqın iradəsi, çağrışı və təkidi ilə 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayidişı Azərbaycanın siyasi və iqtisadı həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Azərbaycanın rəhbərliyinə qayıdan cənab Heydər Əliyev "Neft Azərbaycanın milli sərvətidir" devizi ilə çıxış edərək, respublikanın neft sənayesinin bərpası və inkişafı ilə yaxından məşğul olmaga başladı. Neft müqaviləsi üzrə müzakirələrə, danışıqlara faktiki olaraq yenidən başlandı və çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verə müqavilə şərtləri əldə edildi. Azərbaycan xalqının ümumilli lideri cənab Heydər Əliyev xarici neft şirkətlərinin Azərbaycana dəvət etmək qərarına gəldi və "Yeni neft strategiyası" tez bir vaxtda işlənib hazırlandı. Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarına nəqli idi. O dövrdə Azərbaycan Prezidentinin sərəncamı ilə Azəri—Çıraq—Günəşli (dərin-sulu hissəsi) yataqların işlənməsi üzrə xarici şirkətlətlə danışıqlara başlandı. ARDNŞ-nin birinci vitse-prezidenti İlham Əliyev də danışıqlar prosesinə cəlb edildi, yeni neft strategiyasının hazırlanmasında və uğurla həyata keçirilməsində ən fəal iştirakçılardan oldu. 1994-cü ilin sentyabrın 20-də Azəri—Çıraq—Günəşli (dərin-sulu hissəsi) yataqların işlənməsi üzrə dünyanın 7-ölkəsinin 11 məşhur neft şirkəti ilə "Məhsulun Pay Bölgüsü" sazişi "Əsrin müqaviləsi" imzalandı. "Əsrin müqaviləsi" adı ilə bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edilməsi, cənab Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının heyata keçirilməsinin parlaq təcahürüdür. "Əsrin müqaviləsi" haqqında Heydər Əliyev demişdir: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdi".

Əsrin müqaviləsindən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə təkan verdi. Müqavilənin imzalanması ilə xalqımızın öz sərvətləri üzərində sahiblik hüququ bir daha təsdiq edildi və eyni zamanda Azərbaycan iqtisadiyyatının dünyaya açıq olması bir daha nümayiş etdirildi. Heydər Əliyevin bilavasitə iştirakı ilə Bakıda, həmçinin dünyanın ən böyük şəhərlərində Vaşiqton, London, Parisdə xarici ölkələrin neft şirkətləri ilə 21-neft sazişi imzalanmışdır. Bu sazişlərin həyata keçirilməsində dünyanın 14 ölkəsinin 30 neft şirkəti iştirak edir. Bu sazişlərdə Azərbaycanın neft-qaz sənayesinə texminən 60 milyard ABŞ dolları həcmində sərmaye qoyulması nəzərdə tutulmuşdur. Heydər Əliyevin neft strategiyası mühüm tərkib hissəsini xarici şirkətlər ilə birlikdə hasil olunan neftin və qazın iri həcimli nəqlini və xarici bazarlara ixracini təmin edəcək boru nəqliyyat infrastruktorun yaradılması təşkil etmişdir. Neft strategiyasının həyata keçirilməsinin ilk illərində ilk növbədə Bakı—Novorossiysk və Bakı—Supsa boru kəmərləri yenidən quruldu, neft və qazın etibarlı və irimiqyaslı ixracını təmin etmək məqsədilə Heydər Əliyev adına Baki—Tbilisi—Ceyhan əsas neft ixrac və Bakı—Tbilisi—Ərzurum qazboru kəmərləri tikilərək istismara verildi. Bakı—Tbilisi—Ceyhan və Bakı—Tbilisi—Ərzurum əsas ixrac boru kəmərlərinin fəaliyyər göstərməsi və bu boru kəmərləri ilə neft və qazın nəqli neft strategiyasının mühüm nəaliyyətlərindəndir. Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən bu yeni enerji dəhlizinin fəaliyyəti sahəsində Azərbaycan neftinin beynəlxalq bazara çıxarılması nəticəsində ölkənin tranzit potensialı bir neçə dəfə artdı. Baki—Tbilisi—Ceyhan və Bakı—Tbilisi—Ərzurum əsas ixrac boru kəmərlərinin fəaliyyət göstərməsi ilə əlaqədar Azərbaycan, Gürgüstan, Türkiyə və Mərkəzi Asiya ölkələri arasında idxal-ixrac münasibətlərinə və iqtisadi əlaqələrə güclü təkan verdi. Neft strategiyasının uğurla reallaşması və karbohidrogen ehtiyatların xarici şirkətlərlə birgə istismarı və ixracı ölkəmizin gəlirlərini ildən ilə artırır və valyuta daxil olmalarını sürətləndirir. Azərbaycanın dünya iqtisadi sistemə inteqrasiya olunması nəticəsində neftdən gələn gəlirlərin idarə olunması sahəsində iqtisadiyyatda ən yaxşı təcrübənin tətbiqinə yol açırdı.

Neft strategiyasının növbəti mərhələsində ölkənin neft yataqlarının xarici şirkətlər ilə birgə işlənməsindən əldə edilən neft gəlirlərinin toplanaraq səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təşkil edir. Bu məqsədlə Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu təsis edilmişdir. Neft Fondunun əsasnaməsi Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2000-ci il tarixli 434-nömrəli fərmanı ilə təsdiq edilmişdir. Yaradıldığı gündən şəffaflıq Neft fondunun fəaliyyətinin əsas prinsiplərindən biridir. Neft fondunun yaradilması ilə neft sərvətlərinin nəsillər arasında ədalətli bölgüsü, onların səmərəli və məqsədyönlü şəkildə idarə edilməsi üçün əsaslı təminat quruldu. ARDNF-nun Nizamnaməsinə görə, Fondun vəsaitləri strategi baxımdan mühüm infrastruktur obyektlərin tikintisi və yenidən qurulmasını, eləcədə vacib ümümilli problemlərin həlli üçün istifadə oluna bilər. Heydər Əliyev tərəfindən əsasə qoyulmuş Neft strategiyasının Ulu öndərimizin layiqli davamçısı Prezident İlham Əliyev inkişaf etdirdi, dərinləşdirdi və bütün sahələrin inkişafını təmin etdi. Ulu öndər Heydər Əliyev cənab İlham Əliyev haqqında demişdir: " İnamıram ki, mənim axıra çatdıra bilmədiyim talleyüklü məsələləri, planları, işləri xalqın köməyi və dəstəyi ilə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inaniram və gələcəyinə böyük ümüdlər bəsləyirəm" fikri öz təsdiqini bir daha tapdı. Ulu öndərimizin layiqli davamçısı kimi, Prezident İlham Əliyev neftdən gələn maliyyə vasaitlərini qeyri-neft sektoruna və sosial sahələrə yönəltdi. Azərbaycan Avropanın enerji təhlükəsizliyində ən mühüm və ehtibarlı tərəfdaşa çevrildi. Qeyri-neft sektoruna yatırılan sərmayələrlə regiyonların inkişafı surətləndi və digər sahələrə dair qəbul edilən dövlət proqramları öz bəhrəsini verdi.

İlham Əliyev demişdir: "Şəffaflıq bizim uğurlarımızin əsas səbəblərindən biri olacaqdır. Bu bizə imkan verəcək ki, gələcəkdə neftdən əldə olunan gəlirlər səmərəli idarə olunsun və hər bir Azərbaycan vətəndaşı bunu öz gündəlik həyatında hiss etsin". İlham Əliyevin həyata keçirdiyi iqtisadi kursun prioritet istiqaməti olaraq Azərbaycanda neft sektoru ilə bərabər qeyri-neft sektorunun inkişaf etdirilməsi bu gün xüsusi diqqət yetirilir. Bu məqsədlə artan neft gəlirləri, o cümlədən Neft Fondunun vəsaiti hesabına ölkədə mühüm infrastruktur və sosial yönümlü layihələrin maliyyələşdirilməsi həyata keçirilir və ölkənin iqtisadi inkişafını stimullaşdırılmasında, strateji əhəmiyyətli dövlət proqramları və layihələrin maliyyələşdirilməsində eləcə də regiona investisiya qoyulmasının təmin edilməsində Dövlət Neft Fondunun rolu ildən ilə artır. İnfrastruktur layihələrin və regional inkişaf proqramlarının uğurla həyata keçirilməsi sayəsində ölkəmizin iqtisadi inkişafı üçün güclü baza formalaşır, Azərbaycanın hər bir bölgəsində yeni müasir tələblərə cavab verən infrastruktur yaradılır, elektrik stansiyalar tikilir, qaz və su kəmərləri çəkilir, yollar salınır. Artan neft gəlirləri hesabına ilk növbədə sosial siyasət sahəsində o cümlədən aztəminatlı təbəqələrin, qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində saysız tədbirlər həyata keçirilir. Cənab prezident İlham Əliyev tərəfindən bu məqsədlər üçün bir çox Sərəncam və Dövlət proqramları qəbul edilmişdir.

I. Azərbaycan Dövlət Neft Fondu 2001-ci ildən başlayaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz doğma yurdlarından didərgin düşmüş qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlərin həyata keçirilməsinə vəsait ayirir. Dövlət Neft Fondunun vəsaiti hesabına Ağdam, Füzuli, Goranboy, Biləsuvar, Beyləqan, Sabirabad, Saatlı, Ağcabədi, Göygöl, İmişli, Beyləqan, Qəbələ, İsmayıllı, Oğuz, Şəki, Şəmkir, Hacıqabul rayonlarında, Naxçıvan Muxtar Respublikasında, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Yevlax, Balakən şəhərlərində, Masazır, Pirşağa, Ramanı, Mehtiabad, Müşviqabad, Fatmayi və Ümid qəsəbələri ərazisində qaçqın və məcburi köçkünlər üçün hündürmərtəbəli binaların, fərdi yaşayış evlərinin, sosial-mədəni, infrastruktur və digər obyektlərin tikintisi həyata keçirilmişdir. 2001-ci ildən 30.12. 2015 tarixinədək olan dövr ərzində bu layihə üzrə tədbirlərə fonddan ümumilikdə 1907.7 milyon manat, o cümlədən cari il üzrə 150.0 milyon manat vəsait ayrılmışdır. Ayrılmış ümumi vəsait hesabına Azərbaycanın müxtəlif bölgələrində enerji, qaz, su təchizatı və digər zəruri sosial və texniki infrastruktur sistemləri ilə təmin edilən yeni yaşayış məhəlləri və qəsəbələri salınmışdır.

**(Ardı 6-cı səhifədə).**